Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# Elm və təhsilin inkişaf etdirilməsi



**Hər bir ölkənin inkişafının uğurlu olması bir neçə əmsalla qiymətləndirilir. Bu əmsallar içərisində elm və təhsil səviyyəsinin hansı göstərici ilə ifadə olunması çox mühüm rol oynayır. Elm və təhsil hər bir insana öz davamlı gələcəyini formalaşdırmaq, zəruri bilik, bacarıq, münasibətləri və dəyərləri əldə etmək üçün imkan yaradan əsas faktorlardan biridir.**

Müasir dövrdə davamlı inkişaf və təhsil sistemini ayrı-ayrı mövzular kimi deyil, vahid bir sistem kimi nəzərdən keçirmək lazımdır. Çünki davamlı inkişafı təmin edən vasitələrdən ən əsası ölkənin inkişaf etmiş təhsil sistemidir. İnkişaf etmiş ölkələrdə sosial institutların gələcək inkişafı keyfiyyətli təhsillə bağlıdır.

Danılmaz faktdır ki, ölkəmizdə də elm və təhsilin inkişafı daim diqqət mərkəzindədir. Xüsusən müstəqilliyini bərpa etdikdən sonra ölkə qarşısında duran ən böyük vəzifələrdən biri də təhsil sisteminin köhnə şablonlardan azad edilərək müasirləşdirilməsi və yeni ictimai-iqtisadi şəraitin tələblərinə uyğun şəkildə formalaşdırılmasına nail olmaqdır. Müasirləşdirmə, ilk növbədə, qabaqcıl texnologiyaların və idarəetmə üsullarının, elmi nailiyyətlər əsasında yaradılan innovasiyaların ölkənin sosial-iqtisadi həyatına uğurlu tətbiqi ilə bağlıdır. Bunun üçün prioritet istiqamət ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsi ilə yanaşı, ölkədə insan kapitalının inkişafı, şəxsin müasir bilik və bacarıqlara yiyələnməsinin təmin edilməsidir.

Bəllidir ki, elm olmayan yerdə ixtisaslı kadrlar, inkişaf da və deməli, gələcək də olmayacaq. Əbəs yerə deyilməyib ki, elmə doğru gedən yol təhsildən keçir. Məlum olduğu kimi, görkəmli şəxsiyyət Heydər Əliyev elm və təhsil sahəsinə daim böyük diqqət və qayğı göstərib və sevindirici haldır ki, dahi rəhbərin siyasəti Prezident İlham Əliyev tərəfindən əzmlə davam etdirilir. Bəli, hazırda Azərbaycanda gənc nəslin elm və təhsilə cəlb olunması üçün dövlət tərəfindən mühüm addımlar atılır. Bunun bariz nümunəsi olaraq Elmin İnkişafı Fondunda və təhsillə bağlı digər tədqiqat mərkəzlərində gənc tədqiqatçılar üçün yaradılan şərait, perspektiv, həyata keçirilən layihələr bu sahəyə öz müsbət töhfəsini verməkdə davam edir. Bununla yanaşı, hər il dövlət büdcəsindən elm və təhsilə milyonlarla manat vəsait ayrılır.

Son illər təhsil sistemində aparılan islahatlar, yeniliklər elm və təhsilin inkişafında, savadlı kadrların yetişməsində müsbət təsirini göstərib, gənc nəslin vətənpərvər, geniş dünyagörüşlü, hərtərəfli formalaşmasında mühüm rol oynayıb. Dünyanın mütərəqqi təhsil modeli olan kurikulum artıq bir neçə ildir Azərbaycanda da tətbiq olunur və öz müsbət nəticəsini göstərir. Kurikulumun tətbiqi ölkə təhsilində bir sıra yeniliklərə imza atıb. Artıq müəllimlər şagirdlərə nəzəri bilik vermirlər. Kurikulum sayəsində şagirdlərin dərsə olan marağı daha da artıb.

Azərbaycan təhsilinə göstərilən diqqət göz qabağındadır. Belə ki, Prezident İlham Əliyevin imzaladığı "Dövlət ümumtəhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin dərs yükünün və əməkhaqqının artırılması haqqında" sənəd bu baxımdan əhəmiyyətlidir. Stimullaşdırıcı mexanizmlərin tətbiqi müəllimlərin peşəkarlığının, səriştəlilik səviyyəsinin yüksəldilməsinə, sağlam rəqabətin formalaşmasına müsbət təsir edəcək, hər bir təhsilverənə öz işinə tənqidi yanaşmaq imkanı yaratmaqla inkişaf perspektivlərini göstərəcək və nəticə etibarilə, müəllim əməyinin keyfiyyətinin yüksəlməsinə gətirib çıxaracaq.

### Məktəblərdə bilik səviyyəsi qənaətbəxş hesab olunurmu?

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Rəşad Tağıyev qeyd etdi ki, təhsil hər zaman dəyişən, yeniliklərə və islahatlara açıq sahədir. Bu baxımdan qarşıda duran hədəflərin müəyyən edilməsi və təhsil sahəsində qabaqcıl dünya təcrübəsinin mənimsənilməsi mühüm amildir: "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda qarşıya qoyulan hədəflər, nəticə etibarilə, təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Dövlət Strategiyasının icrası çərçivəsində həyata keçirilən tədbirlər, ümumilikdə, təhsilin səviyyəsinin yüksəlməsində, müəllimlərin peşəkarlıq səviyyəsinin artırılmasında, şagirdlərin tədris göstəricilərinin müvafiq meyarlar üzrə yaxşılaşmasında özünü göstərir.

Təhsilin keyfiyyətinin artırılması istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində ali və orta ixtisas məktəblərinə qəbul göstəricilərində müsbət dinamika müşahidə olunur. Belə ki, qəbul imtahanlarında iştirak edən 17 505 abituriyentin 13 012 nəfəri, yəni 74 faizi respublikanın müxtəlif ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olunub. Bakı şəhəri üzrə qəbul imtahanlarında uğur qazanmış abituriyentlərin 22 faizi 500 və 500-dən çox bal toplayıb. Həmçinin, Azərbaycan beynəlxalq təhsil reytinqlərində bütün göstəricilər üzrə irəliləyir, beynəlxalq olimpiadalardakı uğurların sırası genişlənir.

Ümumi təhsildə keyfiyyətə birbaşa təsir edən amillərdən biri də "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda da təsbit olunmuş tam orta təhsil səviyyəsində tədrisin təmayüllər üzrə təşkili məsələsidir. Şagirdlərin seçdikləri ixtisas istiqamətləri üzrə daha yüksək bilik və bacarıqlara yiyələnməsini təmin etmək məqsədilə son illər bu sahədə ciddi addımlar atılır, təhsilin təmayüllər üzrə təşkil olunduğu məktəblərin şəbəkəsi ardıcıl şəkildə genişləndirilir.

Onu da qeyd edim ki, dövlət rəhbərinin təhsilə həssas münasibəti nəticəsində infrastruktur yenilənir, təhsilin keyfiyyəti yüksəlir, təhsil işçilərinin sosial rifahı ilbəil yaxşılaşır. Bu isə, ümumilikdə, müəllim peşəsinə marağın artmasına səbəb olur".

### Məktəblərdə İKT-dən istifadə imkanı hansı səviyyədədir...

Təhsil eksperti Kamran Əsədov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, təhsilin keyfiyyətinə təsir edən mühüm amillərdən biri məktəbəqədər təhsillə əhatəlilik səviyyəsidir: "5 yaşlı uşaqların təhsilə cəlb edilməsi səviyyəsi ötən tədris ilində 75 faizə çatdırılıb. İstedadlı uşaqlarla iş sahəsində görülən tədbirlər nəticəsində ötən il respublika fənn olimpiadalarında iştirakçı sayında artım özünü göstərib. Ümumilikdə, olimpiadalarda 33 min şagird iştirak edib. Bu da 2013-cü illə müqayisədə 5 dəfə çoxdur".

Onun sözlərinə görə, 2018-2019-cu tədris ilində Azərbaycanda məktəblərin 62 faizi internetlə təmin olunub: "Yeni tədrisdə İKT-dən istifadə imkanlarının genişləndirilməsi baxımından ölkə üzrə internetə və Azərbaycan Təhsil Şəbəkəsinə (ATŞ) qoşulmuş məktəblərin sayı 2746-ya çatdırılıb. Ötən tədris ilində məzmun islahatları çərçivəsində dərslik hazırlığında yeni reqlament və prosedurlar tətbiq edilib. Təhsil İnstitutu nəzdində Tədris Resursları Mərkəzi yaradılıb, prosesə dərslik hazırlığı üzrə mütəxəssislər cəlb edilib, qabaqcıl təhsil sistemlərinin təcrübəsi və bu sahədə mövcud olan innovasiyalar tədqiq edilib və yeni məzmun konsepsiyası əsasında ümumtəhsil məktəbləri üçün ehtiyat dərsliklərin hazırlanmasına başlanıb".

### "Müəllim olmaq istəyənlərin deyil, müəllim kimi işə başlayanların da sayı artır"

Ekspert onu da əlavə etdi ki, əvvəlki tədris illərində olduğu kimi, ötən müddətdə də müəllimlərin peşəkarlıq səviyyəsi artırılıb: "Sadəcə, müəllim olmaq istəyənlərin deyil, müəllim kimi işə başlayanların da sayı artıb. 2018-2019-cu tədris ilində, ümumilikdə, müddətsiz müqavilə əsasında 4053, müddətli müqavilə əsasında 4500 müəllim işə qəbul edilib ki, bu da son illərdə vakant yerlərin 100 faiz tutulması baxımından ən yüksək göstərici olub. Görülən işlərin nəticəsidir ki, ümumilikdə, son 5 ildə məktəblərin müəllim tərkibi keyfiyyət baxımından yaxşılaşıb, 20 mindən çox gənc müəllim işə qəbul olunub. Ümumiyyətlə, 2018-2019-cu tədris ilində görülən işləri, həyata keçirilən islahatları müsbət hesab edirəm və düşünürəm ki, bu, ölkədə təhsilin inkişafını daha da sürətləndirəcək".

### Təhsildə yaşanan problemlər...

Bildirək ki, bu gün təhsil sektorunda qeydə alınan inkişafla yanaşı, bəzi problemlər də var. Təhsil eksperti Nadir İsrafilov bildirdi ki, bəzi şagirdlərin və müəllimlərin psixoloji problemləri var: "Ona görə də məsələyə həssaslıqla yanaşılmalıdır. Nəzərə almaq lazımdır ki, ölkədə 1 milyon 600 min şagird təhsil alır və onların hər birinin xarakteri ayrıdır. Həm də onlar formalaşmış xarakterlə məktəbə daxil olurlar. Çünki onlarda xarakter 3-5 yaşlarında formalaşır. Ona görə də məktəb dövründə həmin uşaqlarla yaxşı məşğul olmamışıqsa, gələcək inkişaflarında problem ola bilər. Bəllidir ki, məktəblərdə hər kəsə istənilən tərbiyə verilə bilməz. Təhsil sahəsində aparılan islahatlar bir çox məsələ ilə əlaqəlidir.

Onu da bildirim ki, qeyd olunan sektorda yaşanan problemlərdən biri də bəzi ixtisasların müəyyən müddət keçəndən sonra lazımsız peşəyə çevrilməsi ilə bağlıdır. Bu səbəbdən də dövrün tələbinə uyğun kadrların hazırlanmasına ehtiyac var. Nəzərə almaq lazımdır ki, 10 ildən sonra dünyada mövcud ixtisas və peşələrin 80 faizinə ehtiyac olmayacaq. Hansı sahə daha çox inkişaf edəcək, o sahələrə görə də qərarlar veriləcək. Bu da iqtisadi strategiya ilə əlaqəlidir. Təhsil sistemi elə baza bilikləri verməlidir ki, gənclərimiz buna yiyələnə bilsinlər".

*Günel CƏLİLOVA*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir.**